# “WE2019” qadın sahibkarlar üçün müsabiqə yekunlaşıb

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin də dəstək göstərdiyi “WE2019” qadın sahibkarlar üçün müsabiqə başa çatıb.

Müsabiqənin nəticələrinə əsasən “İlin ən gənc sahibkar xanımı” - “FitDiet” brendi ilə Ləman Xəlilzadə, “İlin təşəbbüskar sahibkar xanımı” - “TourismLab” brendi ilə Həvva Səfərova, “İlin təhsil üzrə sahibkar xanımı” - “BD Kids” brendi ilə Elvira Bağırova, “Xaricdə fəaliyyət göstərən Azərbaycanlı sahibkar xanım” - “Cuisine Chez Billura” brendi ilə Billurə Bernard, “Milli brendi təmsil edən ilin sahibkar xanımı” isə “Tovuz Baltiya MMC” brendi ilə Günel Məmmədhəsənova olub.

Müsabiqənin qalibi olan sahibkar xanımlar təşkil olunmuş tədbirdə mükaflandırılıblar.

Qeyd edək ki, 2019-cu ilin yanvar-fevral ayları ərzində “Youth Inc.” Sahibkarlıq Proqramı tərəfindən “AzərTürkBank” ASC-nin dəstəyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dövlət tərəfdaşlığı, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosasiyası (AQSİA), “WoWoman Azerbaijan” təşkilatlarının, ADİU-da fəaliyyət göstərən Yunus Sosial Biznes Mərkəzi və “INNOLAND” İnkubasiya Mərkəzinin tərəfdaşlığı ilə həyata keçirilmiş müsabiqədə 16 yaşdan yuxarı sahibkar xanımlar iştirak ediblər. Müsabiqəyə ümumilikdə 161 xanım sahibkar müraicət edib. İlkin seçim mərhələsində 68 xanım sahibkar ikinci mərhələyə keçid haqqı qazanıb. Daha sonra tərəfdaş qurumlardan ibarət xüsusi komissiya tərəfindən yenidən müəyyən kriteriyalar əsasında seçim aparılaraq 11 finalçı müəyyən edilib. Seçilmiş 11 finalçı münsiflər heyəti qarşısında çıxış edərək öz bizneslərini və fəaliyyətlərini təqdim ediblər. Finalçılar arasından 5 nominasiya üzrə qaliblər müəyyən edilib.

